# AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN FAUNA MÜXTƏLİFLİYİ VƏ ONUN BƏRPASI İMKANLARI

**Elşad Əsgərov[1,2*], Qiyas Quliyev[2], Təvəkkül İsgəndərov[2], Tahir Kərimov[2]**

*[1]Ümumdünya Vəhşi Təbiət Fondu (WWF) Azərbaycan nümayəndəlyi*

*[2]AMEA-nın Zoologiya İnstitutu*

Azərbaycanın işğaldan azad olunmuş əraziləri iki təbii vilayətdə yerləşmişdir – Kür dağarası çökəklik vilayəti və Kiçik Qafqaz vilayəti. Burada əsasən quru-çöl, arid-meşə, dağ-meşə, dağ-çəmən və qayalıq landşaftlarına rast gəlinir. Landşaft müxtəlifliyi bitki və heyvanat aləminin zənginliyinə səbəb olmuşdur.

Ərazinin həm onurğasızlar, həm də onurğalılar faunası öz zənginliyi ilə seçilir.

Azərbaycan Cənubi Qafqazda herpetofaunanın növ müxtəlifliyi baxımından ən zəngin ölkə olmaqla 11 amfibi və 62 reptili növlərinə malikdir. Bu növləin əksəriyyətinə Qarabağ ərazilərində rast gəlinir: 5 növ amfibi (45,5%) və 35 növ reptili (56,4%). Amfibilər əsasən sututarları ilə zəngin olan dağətəyi, meşə və dağlıq ərazilərdə yayılmışdır (4 növ). Sıx enliyarpaq meşələr, rütubətli və kserofit ərazilər, subalp və alp çəmənlikləri iqlim şəraitinə görə reptili növləri üçün xarakterik olmadığına görə bu ərazilərdə növlərin sayı azdır (9 növ). Qarabağda landşaft baxımından arid ərazilərdə (quru yarımsəhra və bozqırlar) amfibilər növ sayına görə azlıq təşkil edir (3 növ), reptililərin növ müxtəlifliyi isə yüksəkdir (26 növ): 3 növ tısbağa (*Testudines*), 12 növ kərtənkələ (*Zauria*) və 11 növ ilan (*Serpentes*).

Burada 3 Mühüm Ornitoloji Ərazinin olması ornitofaunanın müxtəlifliyini göstərir – Laçın yasaqlığı (əsas sakinləri *Aegypius monachus, Tetrao mlokosieviczi, Falco naumanni, Milvus migrans, Milvus milvus, Circaetus gallicus, Ciconia ciconia*); Dəlidağ Mühüm Ornitoloji Ərazisi (*sakinləri Tetraogallus caspius, Aguila heliaca, Neophron percnopterus, Aegypius monachus, Gypaetus barbatus, Aguila chrysaetos, Circaetus gallicus, Gyps fulvus*); Gamışdağ Mühüm Ornitoloji Ərazisi (sakinləri – Qafqaz tetrası, Xəzər uları, Sarıdimdik dağqarğası, İmperator qartalı, Leşyeyən ağqartal, Saqqallı kərkəs, Qara kərkəs, Bərqud, Ağbaş kərkəs, Qara çalağan).

Ərazinin məməlilər faunası da öz zənginliyi ilə seçilir. Burada ən azı 70 növ məməli qeydə alınmışdır. Onlardan 10 növ Həşəratyeyənlər, 18 – Yarasalar, 1 – Dovşankimilər, 21 – Gəmiricilər, 15 – Yırtıcılar və 4 növ Cütdırnaqlılar dəstələrinin nümayəndələridir. Bu növlərin içərisində respublikamızın və beynəlxalq qırmızı kitablara daxil edilmiş Qafqaz bəbiri, Zolaqlı kaftar, Manul pişiyi və s. kimi növlər vardır.

Ərazidə XX əsrdə müxtəlif statuslu 6 Xüsusi Mühafizə Olunan Təbiət Ərazisi (XMOTƏ) təşkil edilmişdir. XMOTƏ-lərin və ətraf ərazilərin təbii komponentləri 30 il sürən işğal müddətində ciddi zərər görmüşdür – heyvanların özləri məhv edilmiş, yaşayış mühitləri dağıdılmışdır. Həmin növlərin bərpası üçün respublikamızda artıq yetərincə təcrübə vardır. Beynəlxalq və yerli təbiəti mühafizə qurumları tərəfindən ölkəmizdə ceyranların, meşə kəllərinin reintroduksiyası sahəsində artıq uğurlu layihələr icra edilmişdir. İşğaldan azad edilmiş ərazilərdə mövcud XMOTƏ-lərin bərpası və yenilərinin yaradılması ilə yanaşı, orada yoxa çıxmış bəzi növlərin reintroduksiyası da aktualdır. Ceyranların, muflonların, köpgərlərin bərpası ilk mərhələdə aparıla bilər.